**Azərbaycan–Gürcüstan arasında qida təhlükəsizliyi üzrə əməkdaşlıq**

- AQTA yarandığı gündən etibarən adıçəkilən qurumla qida təhlükəsizliyi, baytarlıq, fitosanitar nəzarət, idxal-ixrac prosedurları və təcrübə mübadiləsi sahələri üzrə sıx ikitərəfli əməkdaşlıq edir. əhatə edir. Mütəmadi olaraq virtual və fiziki görüşlər keçirilir, qarşılıqlı səfərlər təşkil olunur və təcrübə mübadiləsi aparılır.
- 2026-cı il 28 aprel tarixində Gürcüstanın Tbilisi şəhərində keçiriləcək Beynəlxalq Baytarlıq Gününə həsr olunmuş tədbirdə Agentlik Aparatının Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi Qalib Əbdüləliyev iştirak etmişdir.
- 2026-cı il 17 aprel tarixində Agentliyin nümayəndələri ilə Gürcüstanın Milli Qida Agentliyinin nümayəndələri arasında "Qəhvəyi mərmər bağacığı (Halyomorpha halys)" ilə bağlı məsələləri müzakirə etmək və məlumat mübadiləsi aparmaq məqsədilə onlayn görüş keçirilmişdir.
- 2025-ci il 25 aprel – AQTA-nın nümayəndə heyəti Gürcüstanın Tbilisi şəhərində Beynəlxalq Baytarlıq Gününə həsr olunmuş tədbirdə iştirak edib, rəsmi görüşlər keçirərək qida təhlükəsizliyi, baytarlıq nəzarəti və əməkdaşlıq perspektivlərini müzakirə edib.
- 2024-cü il 24-25 sentyabr — Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatının (EPPO) 74-cü sessiyasında Gürcüstan nümayəndələri iştirak etmişdir.
- 2024-cü il 2-4 iyul — Azərbaycanda "Xırdabuynuzlu heyvanların taunu (PPR) və dabaq xəstəliyi (FMD)" ilə bağlı beynəlxalq məsləhətləşmə tədbirində Gürcüstan nümayəndələri iştirak etmişdir.
- 2024-cü il 10 iyun — Azərbaycan və Gürcüstan Qida Təhlükəsizliyi Agentliklərinin əməkdaşları arasında təbii mineral suların tənzimlənməsi mövzusunda onlayn görüş keçirilmişdir.
- 2022-ci il 19 oktyabr – Gürcüstan Milli Qida Agentliyinin nümayəndələri Azərbaycan Qida Təhlükəsizliyi İnstitutuna səfər etmiş, İnstitutun laboratoriya fəaliyyəti ilə tanış olmuş və qida təhlükəsizliyi sahəsində təcrübə mübadiləsi müzakirə olunmuşdur. Nümayəndələr laboratoriyalarla tanış olub, sınaq proseslərini izləyiblər. Görüşün sonunda AQTİ ilə Gürcüstan Dövlət Kənd Təsərrüfatı Laboratoriyası arasında heyvan sağlamlığı sahəsində əməkdaşlığı nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb.
- 2022-ci il 18 may – AQTA-da Gürcüstanın Acarıstan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Giorgi Surmanidze ilə görüş keçirilib. Görüşdə AQTA-nın fəaliyyəti, iki ölkə arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq və sərhədyanı monitorinqlər müzakirə olunub.
- 2022-ci il 7 may – AQTA sədri Qoşqar Təhməzli ilə Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı naziri Otar Şamuqia arasında ikitərəfli görüş keçirilmişdir. Görüşdə sərhədyanı birgə monitorinqlər, idxal-ixrac nəzarəti, damazlıq heyvanların idxalı, fitosanitar sertifikatların elektron mübadiləsi və çəyirtkəkimilərə qarşı transsərhəd monitorinqlər müzakirə olunmuşdur.

- 2021-ci il 11 noyabr – AQTA sədri Qoşqar Təhməzli Gürcüstan Milli Qida Agentliyinin rəhbəri Zurab Çekuraşvili ilə görüşüb. Görüşdə iki ölkə arasında qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı sahəsində əməkdaşlığın genişləndirilməsi, sərhədyanı birgə monitorinqlər, idxal-ixrac nəzarəti və beynəlxalq təcrübələrin tətbiqi müzakirə olunub.